*https://doi.org/10.30546/114578.2025.10.4005*

# MAHİRƏ NAĞIQIZININ LİRİK "MƏN"İ – ANALI DÜNYASI

**Ülviyyə Hacıyeva**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://ORCID.org/* 0000-0002-9612-6702
*ulviyyehaciyeva13@mail.ru*

**Xülasə**

Söz sənəti yaranandan Ana obrazı ədəbiyyatın ən möhtəşəm və solmayan mövzularından biri olub. Hər dövrün ədəbi nümunələrində ana – həyat verən, qoruyan, yol göstərən və eyni zamanda, bəzən susaraq fəryad edən bir sima kimi qarşımıza çıxır. O yalnız dünyaya gətirən, bəsləyən, həyat verən, yeri gəldikdə canını verməyə hazır olan qadın deyil, vətən, yurd, təbiət, müqəddəslik və insanlığın özü kimi tərənnüm olunur. Təsadüfi deyil ki, Tanrı özündən sonra yaratmaq missiyasını qadına – Anaya verib. Ədəbiyyat bu obrazı zaman-zaman fərqli baxış bucaqlarından göstərsə də, onun qəlbi və duyğusu həmişə eyni qalıb – sonsuz məhəbbət və fədakarlıq.

Mahirə Nağıqızının şeirlərində ana obrazı həm xatirə, həm ağrı, həm üzr, həm də ruhani ünvan kimi əks olunur. Şairənin anaya ünvanlanmış şeirlərində əslində Ana – Nazlı konkret bir fərdin timsalında tarixin dərinliklərindən başı kəlağayılı, ağzı yaşmaqlı, sinəsi sazlı-sözlü, ürəyi dağlı, taleyi küskün Azərbaycan qadınının ümujiyevamiləşmiş obrazı, dərin bir daxili təlatüm, etirafın cəsarəti, qadın və insan ağrısının sözə çevrilmiş təcəssümüdür.

**Açar sözlər:** poeziya, lirik "mən", Mahirə Nağıqızı, ana obrazı, etiraf.

# MAHIRA NAGHIGIZI'S LYRIC "I" – A MOTHERLY WORLD

**Ulviya Hajiyeva**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

Since the emergence of the art of words, the image of the Mother has remained one of the most powerful and timeless themes in literature. In literary works of every era, the mother appears as a figure who gives life, protects, guides − and at times, silently cries out in pain. She is not only the woman who

gives birth, nourishes, gives life, and is ready to sacrifice herself when needed, but she is also glorified as homeland, nation, nature, sacredness, and even humanity itself. It is no coincidence that, after Himself, God entrusted the act of creation to a woman − to the Mother. Although literature has portrayed this figure from different perspectives over time, her heart and emotional essence have always remained the same: infinite love and selflessness.

In Mahira Naghigizi's poetry, the image of the mother is reflected as memory, pain, apology, and a spiritual address. In the poems dedicated to the mother, the figure of Mother – Nazli, though portrayed through a specific individual, actually becomes a generalized image of the Azerbaijani woman emerging from the depths of history − with a kəlağayı (silk headscarf) on her head, a yaşmaq (veil) covering her mouth, a chest filled with music and poetry, a heart burdened with sorrow, and a fate marked by quiet suffering. She represents a profound inner turmoil, the courage of confession, and the embodiment of both feminine and human pain transformed into words.

**Key words**: poetry, lyrical "I", Mahira Naghigizi, mother image, confession.

## ЛИРИЧЕСКОЕ «Я» МАХИРЫ НАГИКЫЗЫ – МИР СОГРЕТЫЙ МАТЕРЬЮ

**Ульвия Гаджиева**
*Азербайджанский государственный педагогический университет*

**Резюме**

С момента зарождения искусства слова образ матери был одной из самых величественных и неувядающих тем литературы. В литературных произведениях каждой эпохи мать предстаёт перед нами как фигура, дающая жизнь, защищающая, направляющая и в то же время иногда безмолвно кричащая. Она не только женщина, рожающая, питающая, дающая жизнь и готовая отдать свою жизнь, когда придёт время, но и прославляется как родина, страна, природа, святость и само человечество. Неслучайно Бог возложил миссию творения после себя на женщину – Мать. Хотя литература время от времени раскрывает этот образ с разных сторон, её сердце и чувства всегда оставались неизменными – бесконечная любовь и жертвенность.

В стихах Махиры Нагикызы образ матери отражается и как

воспоминание, и как боль, и как извинение, и как духовное обращение. В стихах поэтессы, посвящённых матери, образ Мать – Назлы, хоть и представлен через конкретную личность, на самом деле является собирательным образом азербайджанской женщины, пришедшей из глубин истории − с кялагаи на голове, с яшмаком на устах, с грудью, наполненной музыкой и словом, с сердцем, обожжённым болью, с судьбой, полной обид и разочарований. Это воплощение глубоких внутренних потрясений, смелости признания, боли женщины и человека, превращённой в слово.

**Ключевые слова:** поэзия, лирическое «я», Махира Нагикызы, образ матери, исповедь.

**Giriş/Introduction**

Ədəbiyyat insan qəlbinin, düşüncəsinin, ağrısının və sevincinin sığınacaq yeridir. Hər bir şair və yazıçı öz yaradıcılığında həyatın müxtəlif yönlərini, duyğuların dərin qatlarını bədii dillə ifadə etməyə çalışır. Bu ifadələrin ən təsirli ünvanlarından biri isə ana obrazıdır – doğmalığın, mərhəmətin, şəfqətin və bəzən də ağrılı həsrətin simvolu kimi. Klassik və müasir ədəbiyyatda əbədiyaşar ana obrazının inkişaf dinamikasını izləsək, onu həyatın, vətənin, müqəddəslərin rəmzi kimi görərik. Ənənəvi ədəbiyyat ana obrazına daha çox müqəddəs, bəzən ilahi bir varlıq kimi yanaşırdı. O, ailənin dayağı, tərbiyənin mənbəyi və əxlaqi dəyərlərin daşıyıcısı idi. Bu obraz əksər hallarda nəsihət verən, dualarla qoruyan, övlad üçün canından keçməyə hazır bir mələk kimi təsvir olunurdu. Bu yanaşma ana obrazını idealizə etsə də, onu insani zəifliklərdən təcrid edirdi.

Zamanla ədəbiyyatın dili, ruhu və mövzulara yanaşma tərzi dəyişdikcə, ana obrazı da emosional və psixoloji dərinlik qazanmağa başladı. Artıq ana təkcə ideallaşdırılmış bir obraz deyil, həm də daxili ağrıları, iztirabları, yaşadığı ziddiyyətləri ilə insan kimi təqdim olunmağa başladı. Bu dəyişiklik, xüsusilə XX əsrdə, müharibələr, köçlər və sosial çətinliklər fonunda daha qabarıq şəkildə ortaya çıxdı.

Azərbaycan ədəbiyyatında ana obrazı obrazı çox erkən dövrlərdən etibarən öz yerini tapıb, həm də müqəddəs bir duyğunun, mənəvi sütunun və ilahi mərhəmətin təcəssümü kimi təqdim olunub. Bayatılarda və laylalarda ana – ağlayan, oxşayan, qoruyan və deyinən bir obraz kimi səslənir. Xalq yaradıcılığı nümunələrində ana həm sevgi, həm də həsrət daşıyıcısıdır:

*Layla dedim yuxun alsın,*

*Qara yazı oxunmasın…*

Bu misralarda belə, ana sevgisinin arxasında qorxu, narahatlıq və övlad dərdi dayanır. Ədəbiyyat bu duyğuları bütün zənginliyi ilə əks etdirərək ana obrazını həm bəşəri, həm də fərdi səviyyədə təqdim edir.

Ədəbiyyatda ana obrazı, çox zaman birbaşa deyil, simvolik məna daşıyır. Ana – torpaq, dil, vətən, yaddaş, hətta Tanrı ilə müqayisə olunan bir gücdür. Bu obraz yazıçı və şair üçün təkcə bir insanı deyil, bütün mənəvi varlığın təməlini ifadə edir. ana obrazını çox zaman yoxluqla, itki ilə təqdim edir. Ana yoxluğu insanın ruhunda sağalmayan bir yara kimi qavranılır. Bu itki lirik "mən"in yaddaşında daim yaşayan, susan, lakin hər zaman hiss edilən bir sükutdur. Ana yoxluğu ilə bağlı yazılmış poeziyada insan özünü yetim, natamam və köksü dağlı hiss edir. M.Müşfiin dediyi kimi:

*Ana dedim!.. Ürəyimə yanar odlar saçıldı,*
*Ana dedim!.. Bir ürpəriş hasil oldu canımda.*
*Ana dedim!.. Qarşımda bir gözəl səhnə açıldı,*
*Ana dedim!.. Fəqət onu görməz oldum yanımda...*

Ana obrazı ədəbiyyatda təkcə bir insanın fiziki mövcudluğu deyil, həm də emosional güc mərkəzi, duyğuların rəmzi və lirik "mən"in iç dünyasının səsi kimi təqdim olunur. Xüsusilə lirik poeziyada ana, bəzən sevincin ünvanı, bəzənsə dərdin, itkinin, iç təlatümün aynası olur. Şairlərin qələmində ana bir etiraf məqamına, daxili monoloqa, bəzən isə bağışlanma diləyinə çevrilir.

*Ana! Ana!.. O adın qarşısında bir qul tək*
*Həmişə səcdədə olmaq mənə fəxarətdir,*
*Onun əliylə bəla bəhrinə yuvarlansam,*
*Yenə xəyal edərəm, bəzmi-istirahətdir.*

Müasir poeziyada bu obraz daha da fərdiləşib, şəxsiləşib. İdeoloji, mənəvi, estetik baxışların fonunda dəyişən ana obrazı böyük sənətkarların – Hüseyn Cavid, Səməd Vurğun, Süleyman Rüstəm, Bəxtiyar Vahabzadə, Elçin və başqalarının yaradıcılığında ana sevgisi, itkisi, həsrəti – emosional yük, ananın əzəməti − əlçatmaz zirvə, ananın narahatlığı – bəşəriyyətin kədəri, narahatlığı kimi təcəssüm olunur. Xüsusilə qadın şairlərin yaradıcılığında ana obrazı təkcə "ana" olaraq deyil, həm də öz iç səsi, öz yarası, öz duaları kimi əks olunur. Nigar Rəfibəylidə, Xurşidbanu Natəvanda, Afaq Şıxlının poetikasında ana həm həsrət, həm də bağışlanma, həm xatirə, həm gələcəyə keçid rəmzi kimi çıxış edir.

**Mahirə Nağıqızı poeziyasında Ana − müqəddəs etirafın ünvanı kimi.** Mahirə Nağıqızının lirikasında ana obrazı birbaşa etirafın ünvanı kimi xüsusi diqqətəlayiqdir. İçində saxladığı günah, peşmanlıq, qırılmış arzular və ya həyata dair suallar – hamısı anaya söylənir. Anaya edilən bu etiraflar çox vaxt ilahi bağışlanma istəyini də əhatə edir. Çünki şair üçün ana – bağışlayan, başa düşən və şəfqəti ilə sağaldan yeganə varlıqdır.

Onun şeirlərindəki lirik "mən", həyatla ana arasındakı ruhani bağı səmimi, etiraf dolu bir dillə oxucuya çatdırır. Burada ana – yalnız bir insan deyil, şairin keçmişi, iç dünyasının dayaq nöqtəsi və duyğularının tərcümanıdır.

Mahirə Nağıqızı lirikasında ana obrazı vasitəsilə insanın mənəvi dünyasının ifadəsi, emosional yük, duyğusal aləmdə inikası əksini tapır. Bəzən Ana şairin iç dünyasının təlatümü və etirafı kimi çıxış edir. O, dünyanın hər üzünü görmüş, isti-soyuğundan çıxmış, taleyin ona qazandırdıqları qədər də itirdiyi və bu itkiləri Tanrı sınağı kimi mərdanə qəbul edir. Lirik "mən" çox zaman Anaya xitab etməklə əslində öz-özünə danışır, narahat dünyasında bir çıxış yolu axtarır.

*Yenə dərdin göynətməsin qəlbini,*
*Ağ saçını suya sərib ağlama.*
*Kim böləcək bölünməyən dərdini,*
*Fəğan çəkib qərib-qərib ağlama* [Nağıqızı, 2025:26].

Burada ana sadəcə sevgi və narahatlıq simvolu deyil, həm də öz həyatını yaşamamış bir qadın, susmuş bir ağrı, bəzən isə şairənin daxili monoloqunun ünvanıdır. Q.Umudlu yazır: "*İnsan məhəbbətinin əzəli, körpə ikən başının ana sinəsinə dayandığı anlarda göyərib cücərir. Vətən anadan, onun isti qucağından, ılıq nəfəsindən, məhəbbət nuru yağan baxışlarından başlanır. Ananın nəvaziş dolu baxışları ilə nur seli kimi körpələrin ruhuna hopan ülvi məhəbbət ananın laylası, oxşamaları, bayatıları, nağılları ilə ümmanlaşıb dünya boyda olur. Mahirənin sevgi ilə dolu "Analı dünya"sı da beləcə yaranıb, böyüyüb və məhəbbətlə dolub daşan bir dünyaya çevrilib*" [Umudlu, 2024:130-134].

Mahirə Nağıqızının şeirlərində ana, çox zaman sözlə deyil, sükutla dinləyən, danışmadan anlayan, qınamayan bir varlıq kimi təsvir olunur. Bu da onun poeziyasında ananı müqəddəs bir güzgü, lirik "mən"in sirdaşı kimi göstərir. Onun lirik "mən"i həssasdır, yaralıdır və duyğularını gizlətməyəcək qədər dürüstdür:

*Dedik, demədik də, zaman anidi,*

*Neyniyim, vaxt qəvi, dünya fanidi!*
*Necə bəxtəvərəm, nə xoşdu indi*
*Səninlə ömrümü sürdüyüm, anam* [Nağıqızı, 2025].

Mahirə Nağıqızının analı dünyası – lirik "mən"i onun üçün dualarda yaşamaq, yaddaşda qalmaq, iç dünyasının əksi, hisslərinin səsi, keçmişlə gələcək arasında körpü, öz-özünə etirafın yeganə şahididir. Bu obraz şairənin qadın olaraq içindən keçirdiyi ağrılarla sevməyi bacaran, lakin keçmişə sözünü deyə bilməyən bir övladın iç səssizliyi ilə sözdən ilmə-ilmə toxunub ağ kağızda sadəcə bir obraz deyil, oxucuya ötürülən şəfqət, sevgi, itki və bağışlanmanın tərcümanıdır.

Mahirə Nağıqızı ananı ideallaşdırmır, əvəzində insaniləşdirir, təntənəli rəmz deyil, titrək bir hiss, bağışlayan deyil, susaraq dərindən anlayan bir ana kimi təqdim edir. "*Mahirə Nağıqızının möcüzəli sayıla biləcək söz fırçasının yaratdığı bu obraz çəkdiyi qayğıları, yaşadığı intizarı ilə yandırdığı ocağın keşiyindədir; o, həmin ocağın istisində böyüyən övladlarının hər birinin ancaq qəlbini işıqlandırmır, yaddaşlarında əbədi qalmalı, yaşamalı olan həyat prinsiplərini həkk etməyə çalışır. Bu, ancaq ev-eşik qurmaq üçün sinəsində belə daş daşımaqdan qaçmayan, "Daşıdı daşları ağırlığıynan, Amma ürəyindən daş asılmayan" bir ananın övlad yaddaşından silinməyəcək əbədi "daş nağıllarıdı*r" [Nağisoy, 2024:23].

**Nəticə/Conclusion**

Mahirə Nağıqızının poeziyasında ana obrazı təkcə bir insanın yoxluğu və ya varlığı ilə bağlı deyil. Onun lirikasında ana necə var olmuşdusa, elə də qalır – susaraq anlayan, yoxluğunda da var olan bir qüvvə kimi.

Azərbaycan ədəbiyyatında ana obrazı daim inkişaf edərək, qəhrəmanlıqdan şəfqətə, simvoldan hissə, ictimai statusdan şəxsi ağrıya doğru çevrilib. Mahirə Nağıqızı bu çevrilmənin poetik ifadəsində özünəməxsus yer tutur. Bu poeziyada ana – artıq ağ kağızda sadəcə bir obraz deyil, şeirin nəfəsi, sükutu, duadır. Mahirə Nağıqızının ana obrazı bizə göstərir ki, ana bir ömür yoxluğuyla yaşasa da, qəlbin ən dərin qatında daim nəfəs alır.

## ƏDƏBİYYAT/REFERENSES

1. Nağıqızı, M. (2025). Anamin kitabı. – Bakı: ADPU nəşriyyatı. – 215 s.
2. Nağısoy, M. (2024). Daşlaşan həqiqətin poeziyası / "Yubileyim". – Bakı: "Zəngəzurda" çap evi. – s.17-24.

3. Novruzov, F. (2025). Söz proyeksiyasının yaratdığı abidə / Nağıqızı, M. Anamin kitabı. – Bakı: ADPU nəşriyyatı. – s.5-16.

4. Umudlu, Q. (2024). Mahirə Nağıqızının analı dünyası /”Yubileyim”. – Bakı: “Zəngəzurda” çap evi. – s.17-26.

**Məqalə tarixçəsi**
*Daxil olub* *27.08.2025*
*Qəbul edilib* *12.09.2025*
*Nəşrə tövsiyə edib* *Razim Məmmədov*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*